# Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir

**Hər bir xalqın taleyində onun yetirdiyi dahi şəxsiyyətlərin rolu əvəzsizdir. Tarixin ayrı-ayrı dövlərində xalq ağır sınaqlarla üzləşəndə bütün cəmiyyəti ətrafında birləşdirib vəziyyətdən çıxış yolu tapa bilən liderə ehtiyac duyur. Bütöv bir millət belə bir liderin sayəsində məhv olmaqdan qurtulub yenidən həyata qayıdır. Ümummilli lider Heydər Əliyev xalqımızın taleyində məhz belə bir rol oynamış, millət qarşısında əvəzsiz xidmətləri ilə adını həmişəlik tarixin yaddaşına həkk etmişdir. O, ölkəyə rəhbərlik etdiyi dövrlərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə fəxr etdiyi və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma Azərbaycanı bir xalq və dövlət kimi zamanın sərt sınaqlarından çıxarmışdır.**



**Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək.**

**Edurad ŞEVARDNADZE.**

Azərbaycanın tarixini Heydər Əliyevsiz təsəvvür etmək sadəcə olaraq mümkün deyil. Xalqın otuz ildən artıq bir dövrü əhatə edən tarixi taleyi onun adı ilə bağlıdır. Bu illər ərzində cəmiyyətin ictimai-siyasi və mədəni həyatının bütün sahələrində müşahidə olunmuş dirçəliş məhz onun xidmətlərinin nəticəsidir.

Ümummilli lider hələ 1969-cu ildə ilk dəfə respublikanın rəhbəri seçiləndə Azərbaycan keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri olmuşdur. Sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət olmuşdur.

Həmin illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən iqtisadi-mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Azərbaycan sözün həqiqi mənasında quruculuq meydanına çevrildi. Çoxsaylı sənaye müəssisələri, sosial obyektlər inşa edildi, infrastruktur yeniləndi, kənd təsərrüfatında dirçəliş başladı. Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi.

Ulu öndərin sonralar qeyd etdiyi kimi, “Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır”.

Məlumdur ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, bu müstəqillik əslində formal xarakter daşıyır, müstəqilliyin itirilməsi qorxusu Azərbaycanın başı üzərindən bir an belə çəkilmirdi. Xarici hərbi təcavüz davam edir, ölkə xaos içərisində boğulur, qanunsuzluq baş alıb gedirdi. Müstəqil dövlətin səriştəsiz, məsuliyyətsiz rəhbərləri vəziyyətdən çıxış yolu tapa bilmir, getdikcə xalqın gözündən düşürdü. 1993-cü ilin iyun hadisələri bu ölkə daxilində cərəyan edən ictimai-siyasi proseslərin kulminasiya nöqtəsi oldu. AXC-Müsavat hakimiyyəti siyasi səbatsızlıq nümayiş etdirərək siyasi səhnədən çəkilmək məcburiyyətində qaldı. Əslində xalq və dövlət başsız qalmışdı.

Belə bir kritik məqamda xalq öz böyük oğluna - Heydər Əliyevə üz tutdu. Təcrübəli siyasətçi, bacarıqlı dövlət xadimi xalqın təkidli tələbi ilə dövlət rəhbərliyinə qayıdıb xilaskarlıq missiyasını öz üzərinə götürdü. Tezliklə məlum oldu ki, bu, yeganə doğru seçim idi.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı milli müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Bununla da ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başladı. Azərbaycanın dövlət müstəqilliyi hər cür daxili və xarici təhdidlərdən qurtuldu. Azərbaycanı, onun dövlət müstəqilliyini möhtərəm Heydər Əliyev dühası, zəngin dövlətçilik təcrübəsi, siyasi uzaqgörənliyi, Azərbaycan xalqına sonsuz məhəbbəti xilas etdi.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, milli ordunun formalaşdırılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, cəbhə xəttində vəziyyəti sabitləşdirmək üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, nəhayət, 1994-cü ilin mayında atəşkəs əldə edildi. Cəmiyyət nəfəsini dərmək üçün fürsət əldə etdi, dərin böhrandan çıxmaq, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlara başlamaq, davamlı inkişaf yoluna çıxmaq üçün müqəddəm şərtlər yarandı.

Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyuldu, qanunçuluq bərpa edildi, bütün qanunsuz silahlı dəstələr ləğv olundu. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alındı, dövlət müstəqilliyi qorunub saxlandı. Həmin o qanlı-qadalı illərdə Şəmkir bir növ qərargaha çevrilmişdi. Ətraf rayonlar və Gəncə şəhəri dövlətçiliyimiz əleyhinə qalxmış bir qrup cinayətkar dəstə Ağstafa, Qazax və Gəncədə dövlət orqanlarını ələ keçirmişdilər. Həmin günlərdə Şəmkir sanki alınmaz qalaya çevrilmiş və həmin cinayətkar qrupların zərərsizləşdirilməsində böyük rol oynamışdır. Bu danılmaz faktdır. Yaxşı yadımdadır, 2004-cü ilin Milli Qurtuluş Gününü respublika Prezidenti cənab İlham Əliyev şəmkirlilərlə birgə qeyd etdi. Cənab Prezident şəmkirlilərlə görüşündə dediyi sözləri diqqətə çatdırmaq istəyirəm: “Siz bütün dövrlərdə Azərbaycanın dövlətçiliyinə xidmət etmişiniz. Müstəqil Azərbaycanımızın, müstəqil dövlətimizin müstəqilliyini gücləndirmisiniz. Azərbaycan üçün ən çətin dövrlərdə şəmkirlilər Azərbaycan dövlətçiliyinə arxa və dayaq olmuşdur. Bunu bütün Azərbaycan bilməlidir”.

Şübhəsiz, yeni müstəqil dövlətin həyatında ən əlamətdar hadisələrdən biri 1994-cü ilin sentyabrında xarici neft şirkətlərinin iştirakı ilə ilk neft müqaviləsinin - “Əsrin müqaviləsi”nin imzalanması idi. Bu sənəd asan başa gəlmədi. Azərbaycan iri regional qüvvələrin ciddi təzyiqləri ilə üzləşdi. Həmin qüvvələr müqavilənin reallaşması, eləcə də sonralar Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısını almaq üçün hər vasitədən istifadə etdilər. Amma Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti bu maneələri məharətlə aradan qaldırdı və nəticə etibarilə Xəzər hövzəsində gərginliyə son qoyuldu, əməkdaşlıq mühiti yarandı. Neft Azərbaycan üçün sözün həqiqi mənasında tale məsələsi idi və bu məsələdə hər hansı güzəştə getmək mümkün deyildi. Milli iqtisadiyyatın lokomotivi olan neft sənayesi müstəqil ölkə üçün böyük perspektivlər vəd edirdi. Heydər Əliyevin müəllifi olduğu milli neft strategiyası sonrakı illərdə böyük uğurla həyata keçirildi və bütövlükdə iqtisadiyyatın dirçəlməsinə, ölkənin müstəqilliyinin möhkəmlənməsinə, dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətin beynəlxalq aləmdə, ilk növbədə Avropada nüfuzunun artmasına şərait yaratdı. Bu gün Azərbaycanın yaşadığı tərəqqi ilk növbədə milli neft strategiyasının birbaşa nəticəsidir.

Qarşıda duran mühüm vəzifələrdən biri də aqrar sahədə islahatların aparılması idi. Müstəqil Azərbaycanın yeni həyata başlaması üçün vacib olan bütün digər məsələlər kimi torpaq islahatları da ulu öndərin hakimiyyətə gəlməsindən sonra başladı. 1995-ci ildən etibarən torpaq islahatları ilə bağlı mükəmməl hüquqi baza yaradıldı. 52-dən artıq fərman, sərəncam və digər hüquqi sənədlər hazırlandı. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra Torpaq İslahatı Proqramı hazırlandı və bu proqram uğurla reallaşdırıldı.

Həyata keçirilən hərtərəfli, köklü islahatlar nəticəsində müstəqil Azərbaycan beynəlxalq birliyin nüfuzlu üzvünə çevrildi və 2001-ci ildə Avropa Şurasının sıralarına qəbul edildi. Ulu öndər Avropa Şurasının tribunasından qitə ictimaiyyətinə üz tutaraq deyirdi: “1991-ci ildə dövlət müstəqilliyi qazanan Azərbaycan birmənalı şəkildə Avropaya, onun humanist və demokratik dəyərlərinə inteqrasiya yolunu tutdu. Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq... Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalılaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur”.

Ulu öndər elə həmin tribunadan Avropanın diqqətini Ermənistanın ekspansionist siyasətinə cəlb edərək deyirdi: “Lakin təəssüflər olsun ki, bütün səylərimizə baxmayaraq, biz Avropa Şurasına üzv olarkən yalnız müsbət dəyişiklikləri və uğurları deyil, müəyyən problemlərimizi də özümüzlə gətiririk. Bu, hər şeydən əvvəl bu gün eyni vaxtda Avropa Şurasına üzv olan Azərbaycanla Ermənistan arasında öz həllini tapmamış Dağlıq Qarabağ problemidir. Bu problemin Azərbaycanda doğurduğu çətinliklər, ilk növbədə isə çoxsaylı qaçqınlar ordusu, ağır iqtisadi və sosial vəziyyət təkcə bizim ölkəmizin deyil, bütün regionun demokratiyaya doğru inkişafını ləngidir, insan haqlarının qorunmasında ciddi maneələr yaradır”.

1988-ci ildən üzü bəri ata-baba torpaqlarımız, bütün sərhəd bölgələrimiz Ermənistan silahlı birləşmələrinin əli ilə müharibə zonasına çevriləndə bu münaqişənin alovları qonşu Gürcüstanda da şölələnməyə başlamışdı.

Dağlıq Qarabağ və ətraf rayonlarda olduğu kimi, qonşu Gürcüstan respublikasının azərbaycanlılar yaşayan bölgələrində də nankor ermənilər tərəfindən məqsədyönlü şəkildə milli mənliyimiz təhqir olunurdu. Terror terroru, faciə faciəni əvəz elədikcə camaat qorxu, həyəcan içində çaş-baş qalmışdı. Bir növ arxasız, köməksiz olan soydaşlarımızın Azərbaycana köçhaköçü, kütləvi axını başlanırdı.

Ölkəmizin öz problemlərinin başdan aşdığı bir dövrdə respublika Prezidenti Heydər Əliyev əzabkeş soydaşlarımızı əsla unutmur, nəyin bahasına olursa-olsun, qaçqın axınının qarşısının alınmasını təxirəsalınmaz bir vəzifə kimi irəli sürdü.

Bu barədə ulu öndər Şəmkir rayonunun icra başçısı kimi mənə bir sıra konkret tapşırıqlar verdi. Vəzifə aydın idi. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində ilk növbədə soydaşlarımızın itirilmiş inamını, etibarını, tapdalanmış milli hisslərini dirçəltmək, elindən-obasından bir növ əllərini üzmüş insanları yenidən öz dədə-baba yurdlarına bağlamaq kimi mühüm bir prosesin həyata keçirilməsi ön plana çəkilmişdi. Ulu öndər vəziyyətlə müntəzəm maraqlanır, bizə yeni-yeni tövsiyələr, tapşırıqlar verirdi.

Ulu öndər yarım milyondan çox soydaşımız yaşayan qonşu Gürcüstanla əlaqələri yaxşılaşdırmağı, burada azərbaycanlılara məxsus tarixi abidələrə qayğı göstərməyi, xüsusilə böyük ictimai-siyasi xadim Nəriman Nərimanovun, görkəmli yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin Tbilisidəki ev-muzeylərini himayəyə götürməyi o zaman Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləyərkən mənə tapşırmışdı. Bu tapşırığın o biri üzündə isə həmin ərəfədə erməni daşnaklarının təzyiqindən, terrorundan, milli mənliyinin təhqir olunacağından qorxuya düşən soydaşlarımızın Gürcüstandan Azərbaycana axınının, köçhaköçünün qarşısının alınması dayanırdı. Şəmkir rayonu Azərbaycan ilə qonşu Gürcüstan Respublikası arasında dostluq körpüsünün yaradılmasına yeni töhfə verdi. Bu günün prizmasından 1993-1995-ci illərə nəzər salanda görürük ki, o prosesdə Heydər Əliyevin tövsiyələri necə uğurlu nəticələr verib. Ümummilli liderin tapşırığına əsasən Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafına, daha da dərinləşməsinə, qonşu ölkədə yaşayan soydaşlarımızın problemlərinin həllinə və Gürcüstan ərazisində maddi-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına xüsusi diqqət və qayğı göstərilib. Nəticədə hər iki böyük şəxsiyyətin vaxtilə yaşadığı mülk erməni əsilli ev sahiblərindən müəyyən çətinliklərə baxmayaraq, alınaraq özəlləşdirilmiş, yüksək səviyyədə təmir edilmiş, otaqlar eksponatlarla, o dövrün məişət və texniki avadanlıqları ilə müasirləşdirilmiş, son olaraq mülklərin girişinə Azərbaycan və gürcü dilində buranın ev-muzeyi olduğunu bildirən lövhə vurulmuşdur. Həmin evlər o zaman Heydər Əliyevin tövsiyəsi ilə Tbilisinin fəxri vətəndaşı olduğum üçün mənim adıma sənədləşdirilmişdi. Sonradan mənim ölkə Prezidenti cənab İlham Əliyevə müraciətimə əsasən həmin evlər Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə bağışlanmışdır.

1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Şəmkirin tarixinə daha bir şərəfli səhifə əbədi həkk olundu. Bu Şəmkir Gürcüstan dostluğu idi! O zaman bu dostluğun yolu odalovun içindən keçirdi. Şəmkirlilərin köməyi ilə təkcə Tbilisidəki səfalı Nəbatat bağında 200 kvadratmetrdən çox ərazi abadlaşdırıldı. Azərbaycanın görkəmli şəxsiyyətlərinin əbədiyyətə qovuşduğu bu müqəddəs yer indi əsl ziyarətgaha çevrilib. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə burada qoyulmuş böyük mütəfəkkir Mirzə Fətəli Axundovun büstü bərpa edilib, unudulmaz şairimiz Mirzə Şəfi Vazehin məzarı sahmana salınıb, qəbirüstü abidəsi düzəldilib. 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Fətəli Xan Xoyskinin dağılmış, itib-batmaqda olan məzarı tapılıb, qəbrinin üstü götürülüb, büstü ucaldılıb. Eləcə də görkəmli ziyalı Həsən bəy Ağayevin o vaxtacan heç kimə məlum olmayan məzarı tapılıb, büstü ucaldılıb və axirət evinin ətrafında abadlıq işləri aparılıb.

Tbilisidə, F.X.Xoyskinin qəbirüstü abidəsi ucaldılan ərazidə - qədim müsəlman qəbiristanlığında Tiflis ədəbi mühitindən çıxmış, müstəqil Azərbaycan dövlətçiliyi uğrunda mübarizə aparmış mücahidlərin, ermənilər tərəfindən terror yolu ilə öldürülən, itkin salınan dəyərli insanların, tanınmış elm, mədəniyyət nümayəndələrinin, ictimai-siyasi xadimlərin adları əbədiləşdirilmiş Panteon-qalereya yaradılıb. Bu Panteonu müqəddəsləşdirən ikinci bir cəhət odur ki, ümummilli lider Heydər Əliyevin tapşırığı ilə burada iri mərmər lövhədə “Azərbaycan övladları” yazılmış, dövrünün adlı-sanlı ziyalıları, şəxsiyyətləri kimi tanınan soydaşlarımızın - Əliqulu Qəmküsar, Hüseyn Əfəndi Qayıbov, Eynalı bəy Sultanov, Behbudağa Şahtaxtınski, Hazlı xanım Məmmədquluzadə, Müzəffər Nərimanov (cəmi 26 nəfər) və başqalarının nəşi dəfn edilmişdir. Əbədiyyətə qovuşmuş müqəddəslərimizə, siyahıda adları əbədiləşdirilənlərə ehtiram əlaməti olaraq ərazidə səliqə-sahman yaradılıb, yaşıllaşdırma işləri aparılıb, dekorativ kollar əkilib, ərazinin yolu abadlaşdırılıb...

Tbilisinin mərkəzində, Kürün sağ sahilində böyük mütəfəkkir M.F.Axundovun ikimərtəbəli möhtəşəm mülkünün erməni və erməniqarışıq gürcü ailələrindən geri alınması elə-belə məsələ deyildi. Əvvəl-əvvəl mülkdə yaxşıca əsaslı təmir-bərpa işləri aparıldı, mənzillər dövrün məişət əşyaları və eksponatları ilə zənginləşdirildi. Yazıçının adına layiq ev-muzeyi yaradıldı. Sonralar bu ünvan gürcüstanlı azərbaycanlıların Mədəniyyət Mərkəzinə çevrildi.

Heydər Əliyevin tapşırığı əsasında burada ayda iki dəfə Azərbaycan və Gürcüstan ziyalılarının iştirakı ilə müxtəlif tədbirlər keçirilirdi.

1996-cı ilin mart ayının 8-də Heydər Əliyevin Gürcüstana səfəri heç də asan olmadı. Səfər fevral ayında baş tutmalı idi. Amma 1-2 dəfə təxirə salındı. Çünki, Heydər Əliyev azərbaycanlılarla görüşünü Marneuli rayonunda keçirmək istəyirdi. Ulu öndər o dövrdə tez-tez məni Gürcüstana göndərir, səfərin tez alınması, azərbaycanlılarla görüşmək üçün tələsirdi. Gürcüstanda təhlükəsizlik orqanlarının rəhbəri, o cümlədən Rusiyanın Gürcüstanda yerləşən hərbi bazasının rəhbərliyində təmsil olunan, mənə yaxın adamlar həmin görüşün təhlükəsizliyinə zəmanət vermirdilər. Doğrudan da həmin illər Gürcüstanda ictimai-siyasi vəziyyət qeyri-stabil və təhlükəli idi. Çünki ermənilər Marneulidə Heydər Əliyevə qarşı təxribat və suiqəsd edə bilərdilər. Mən bunlar barədə Heydər Əliyevə mütəmadi məlumat verirdim. Heydər Əliyev bu görüşün reallaşması üçün gərgin fəaliyyət göstərməyi tələb edirdi. Nəhayət ki, görüş planlaşdırıldı və E.Şevardnadzenin Moskva ilə danışıqlarından sonra məlum oldu ki, Gürcüstanda vəziyyətə əslində nəzarət edən Rusiya qoşunları da görüşlərin keçirilməsinə mane olmayacaq və əksinə dəstək olacaqlar. Bu barədə Heydər Əliyevə məlumat verəndə ulu öndər çox məmnun oldu. Görüş yeri isə Tbilisinin Opera Teatrı müəyyən edildi. Heydər Əliyev martın 8-də Gürcüstana səfər etdi və bu səfərdə hava limanında Gürcüstanın bölgələrindən gəlmiş yüzlərlə azərbaycanlı onu sevinc və ümidlə qarşıladı. Ən yaddaqalan məqamlardan biri yaxşı yadımdadır. E.Şevardnadze Opera Teatrında çıxış edərkən necə oldusa Gürcüstanda yaşayan azərbaycanlılar haqqında danışarkən diaspora sözü işlətdi. Heydər Əliyev həmin anda oturduğu kreslodan duraraq onun sözünü kəsdi və dedi: “Eduard Ambrosyeviç, Gürcüstanda yaşayan azərbaycanlılar diaspora deyil. Onlar öz dədə-baba yurdlarında yaşayırlar, bu torpaqlar onların əzəli və əbədi torpaqlarıdır”. Şevardnadze Heydər Əliyevin dediklərini təsdiq edərək, ulu öndərin sözlərinin düzgün olduğunu qeyd etdi və gülümsədi.

1996-cı ilin mart ayında ulu öndər Heydər Əliyevin Gürcüstan Respublikasına rəsmi səfəri dostluq əlaqələrinin müasir tələblər səviyyəsində inkişafı üçün yeni perspektivlər açdı. Gürcüstan-Azərbaycan dostluğunun tarixinə dövlət səviyyəsində yeni-yeni səhifələr əlavə olundu. Bu səfər sadə insanlar, xüsusilə azərbaycanlılarla gürcülər arasında çox ilıq münasibət, xoş bir ovqat yaratdı. Şəmkir ziyalılarının təşəbbüsü ilə ədəbiyyat, mədəniyyət və incəsənət ustalarının geniş auditoriyalı görüşləri təşkil olundu, yubileyləri keçirildi. Heydər Əliyevin təşəbbüsü ilə Tbilisidə teatr truppası yaradıldı, respublikanın əməkdar mədəniyyət işçisi İftixar Piriyev isə truppanın rəhbəri təyin olundu. Milli təəssübkeşimiz olan “Gürcüstan” qəzeti yenidən fəaliyyətə başladı. Qəzetin 75 illik yubileyi ərəfəsində yaradıcı kollektivə bir neçə ton kağız, kompyuter dəsti, faks, surətçıxaran aparat, iki ədəd printer və digər avadanlığı hədiyyə etdik. Gördük ki, qəzetin kollektivi nəqliyyat sarıdan əziyyət çəkir. Bunu eşidən rəhmətlik atam “Qaz-24” markalı “Volqa” maşınını redaksiyaya bağışladı. Şəmkirlilər redaksiya əməkdaşlarının maliyyə xərclərini öz üzərlərinə götürdülər.

Ulu öndər Heydər Əliyev bir sıra beynəlxalq əhəmiyyətli problemlərin, möhtəşəm proqramların həyata keçirilməsində də qonşu Gürcüstan Respublikasının maraqlarına xüsusi önəm verirdi. Uzun illər cənab Heydər Əliyevlə çiyin-çiyinə çalışmış Eduard Şevardnadze öz “Memuarlar”ında ulu öndərimizin bu tarixi xidmətlərini minnətdarlıqla xatırlayaraq yazır: “...Heydər Əliyev enerji daşıyıcılarının əsas marşrutunun Gürcüstandan keçməsi üçün əlindən gələni əsirgəmirdi. Bakı-Supsa ilkin neft borusu tez bir zamanda 6-7 ay ərzində inşa olundu... Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikilişi beynəlxalq maraqlara, eləcə də ABŞ və Türkiyənin aktiv dəstək obyektinə çevrilməsinə səbəb oldu və Gürcüstana çox əhəmiyyətli bir beynəlxalq funksiya qazandırdı... Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair sazişin imzalanması məhz bu layihənin təşəbbüskarı və müəllifi olan Azərbaycan Prezidenti Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti, qətiyyətli mövqeyi, əzmkarlığı sayəsində gerçəkləşdi.”

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Heydər Əliyev irsinə sadiq olaraq Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və orada xiyabanın yaradılması, o cümlədən M. F. Axundovun evinin yenidənqurulması barədə irəli sürdüyü təşəbbüslər də təqdirəlayiqdir. Heydər Əliyev Fondunun yaxından köməyi və qayğısı sayəsində azərbaycanlılar yaşayan bölgələrdə bəzi kənd məktəblərinin təmiri davam etdirilir. Yollar abadlaşdırılır, körpülər salınır, bəzi kəndlərə su xətti çəkilir, bəzi kəndlərdə isə qaz problemi aradan qaldırılır, kənd təsərrüfatı texnikaları və soyuducu anbarların yaradılması işində də köməklik göstərilir. Gürcüstanlı orta məktəb şagirdlərinə hər il Azərbaycan dilində yüzlərlə dərslik, kompüter və avadanlıq göndərilir. Gürcüstanda yaşayan azərbaycanlı gənclərin yeni əsrin müasir, savadlı və hərtərəfi övladları olmaları üçün lazımi qayğı göstərilir. Fondun rəhbərliyi altında nümayəndələr, millət vəkilləri tez-tez bölgələrdə olur, soydaşlarımızın sosial qayğıları və digər problemləri ilə maraqlanırlar.

Bu gün müstəqil dövlət kimi Gürcüstan-Azərbaycan əməkdaşlığı, mədəni əlaqələri, hər iki xalqın əsrlərdən üzü bəri gələn dostluğu, qardaşlığı, ən başlıcası ümummilli lider Heydər Əliyevin siyasi kursu, uzaqgörənliyi uğurla davam etdirilir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan üçün, xalqımız üçün gördüyü işləri sadalamaqla bitib tükənən deyil. Onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Bu gün hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında milli öndər Heydər Əliyevin yetirməsi, onun yaratdığı siyasi məktəbin davamçısı, Azərbaycanı müasir və lider dövlətə çevirmiş möhtərəm Prezidentimiz cənab İlham Əliyev durur. İnanırıq ki, dövlətimiz ulu öndər Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən ləyaqətli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini qoruyub saxlayacaqdır.

1994-1995-ci illərdə dövlət çevrilişlərinin qarşısının alınması, Gürcüstanda tarixi və mədəni abidələrimizin bərpa edilməsi, Gürcüstandan azərbaycanlıların deportasiyasının qarşısının alınması və digər məsəllərin həlli ilə bağlı ulu öndərin verdiyi tapşırıqları olduğu kimi yerinə yetirdiyimə görə qürur duyuram.

**Aslan ASLANOV,**
**YAP Siyasi Şurasının üzvü.**
**Gürcüstan Yazıçılar İttifaqının fəxri üzvü.**